# MEMARLIQ ÜZRƏ KİTABXANA-BİBLİOQRAFİK İNFORMASİYA RESURSLARI: YARANMASI VƏ FORMALAŞMASI MƏRHƏLƏLƏRİ

**Günel HACIYEVA**
*AMEA Mərkəzi Elmi Kitabxanasının doktorantı*
gunel.haciyeva.1987@mail.ru

***Библиотечно-библиографический и информационных ресурсов по архитектуре: создание и этапы формирования***
***РЕЗЮМЕ:*** *В статье проанализированы создание и этапы развития библиотечно-библиографический ресурсов по архитектуре.*
*Определены места библиографических пособий в системе документально-информационных ресурсов.*
***The library-bibliographic information resources of the architecture: the emergence and formation stages***
***Abstract:*** *Phases and development of library bibliographic resorses on architecture have been analysed in the article.*
*In documentary- information system the place of bibliographic manuals have been determined.*

***Açar sözlər:*** *memarlıq fəaliyyəti, kitabxana- biblioqrafik resurslar, sənəd-informasiya təminatının inkişafı*
***Ключевые слова:*** *архитектурная деятельность, библиотека, библиографических ресурсов, развития документально- информационной обеспечения*
***Keywords:*** *architectural activity, library- bibliographic resources, development of documentation and information provision*

**Giriş.**

İnsanın fəaliyyət sahələrinin ixtisaslaşması, onların sənəd-informasiya təminatının və kitabxana-biblioqrafik resurslarının ixtisaslaşmasına səbəb olur. Müasir biblioqrafiyaşünaslıqda müxtəlif sahəvi biblioqrafiyanın və kitabxana-informasiya resurslarının yaranması və genişlənməsi elmin, mədəniyyətin və istehsalatın dinamik inkişafının qanunauyğun təzahürü kimi qəbul olunur. Bu cür yanaşma tərzi, memarlıq üzrə kitabxana-biblioqrafik resursların yaranmasında və bu sahənin sənəd-informasiya təminatı sisteminin inkişafında da özünü büruzə verməkdədir.

**Məsələnin qoyuluşu.**

Memarlıq fəaliyyəti dedikdə memarlıq əsəri yaradan şəxslərin (memarların) peşəkar fəaliyyəti olaraq memarlıq layihəsinin hazırlanmasına və həyata



keçirilməsinə müəllif nəzarəti, tikinti, yenidənqurma və bərpa layihə sənədlərinin hazırlanmasında ümumi əlaqələndirmə, memarlıq sahəsində elmi tədqiqatlar və tədris fəaliyyəti başa düşülür.

Memarlıq nəzəriyyəsi və tarixi, abidələrin bərpası və rekonstruksiyası, bina və qurğuların memarlığı, şəhərsalma, yaşayış məntəqələrinin planlaşdırılması, landşaft memarlığı sahəsində praktik fəaliyyətin nəzəri əsasları memarlıq elmi tərəfindən öyrənilir [2, S. 9].

Əsrimizin 60-cı illərindən etibarən daha böyük sürətlə inkişaf edən bu elm artıq çox geniş tədqiqatları ilə insanın memarlıq fəaliyyətinə yardım edən mühüm elm sahəsinə çevrilmişdir. Memarlıq elminin spesifik xassələrindən biri onun fəaliyyət göstərməsi üçün böyük miqdarda faktoqrafik informasiyaya ehtiyacın olmasıdır. Bir qayda olaraq belə informasiya sənədli formada tərtib edilir və tələbatçılara çatdırılır. Bu səbəbdən də, həmin sahə üzrə tədqiqatlarda sənəd-informasiya təminatının təşkilinə böyük diqqət yetirilir. Bu fəaliyyət sahəsinin uğurla həyata keçirilməsi üçün sahənin ilkin sənədlərlə və həmin sənədləri özündə əks etdirən biblioqrafik informasiya ilə təmin edilməsi zəruridir.

**Məsələnin həlli yolları.**

Azərbaycan ərazisi memarlıq abidələri ilə zəngindir. Şəhərlərimizin qədim və müasir üslüblu memarlıq əsərləri bu sahənin bu günə qədər keçdiyi yolu özündə əks etdirir. Təbii-coğrafi və iqlim şəraitinin müxtəlifliyi lap qədim dövrlərdən Azərbaycan sənətkarlarını müəyyən tikinti – memarlıq planlarının həllinə sövq edirdi. Azərbaycanın öz müstəqilliyini bərpa etməsi memarlıq və şəhərsalma sahəsinə də öz təsirini göstərmişdir. Mövcud memarlıq abidələri araşdırılmış və öyrənilmişdir. Araşdırmaların nəticəsində memarlıq üzrə külli miqdarda sənəd – informasiya resursları yaranmışdır.

Memarlıq üzrə sənəd-informasiya təminatının formalaşması prosesləri ildən-ilə sürətlənir. Eyni zamanda bu sahədə tələb olunan informasiyanın həcmi artır və sənəd-informasiya təminatında daha yüksək operativlik tələb olunur. Memarlıq sahəsində sənəd-informasiya təminatının əhəmiyyətini bu sahənin mütəxəssisləri də təsdiqləyir və buna xüsusi diqqət yetirirlər.

Bütün bu amillər memarlıq üzrə sənəd-informasiya təminatının, eləcə də kitabxana-biblioqrafik təminatın qanunauyğunluqlarının öyrənilməsini tələb edir.

Memarlıq biblioqrafiyası kitabxana-informasiya resursu kimi biblioqrafik elmlər kompleksində baş verən şaxələnmə, diferensiasiya prosesinin nəticəsində meydana gəlmişdir. Memarlıq biblioqrafiyası ilk növbədə ümumi biblioqrafiyaşünaslığın nəzəri bazasında formalaşaraq inkişaf etməkdədir. Bununla belə, memarlıq biblioqrafiyası ona nisbətən daha erkən zamanlarda formalaşmış tarix elmlərinin və texnikanın biblioqrafiyası ilə sıx əlaqələrə malikdir.

Memarlıq biblioqrafiyasının əsas vəzifəsi həm memarlıq abidələrinin mühafizəsi üzrə fəaliyyətin, həm də memarlıq elminin kitabxana-biblioqrafik informasiya tələbatının, sənəd axını və kütləsinin ətraflı öyrənilməsindən, elmi

təhlilindən, mövcud vəziyyətin qiymətləndirilməsindən və bu sahə üzrə proqnozların verilməsindən ibarətdir.

Biblioqrafik elmlər kompleksinə daxil olan digər sahəvi istiqamətlər kimi, memarlıq biblioqrafiyasının da spesifik obyekti vardır. Beləliklə, memarlıq biblioqrafiyasının obyekti memarlıq istiqamətli sənəd-kommunikasiyalar sistemindən, onun tərkib hissəsi kimi bu mövzulu sənədlərdən və sahə üzrə informasiya tələbatçılarından ibarətdir. Ancaq nəzərə almaq lazımdır ki, memarlıq biblioqrafiyasının sənəd-kommunikasiyalar sistemi təkcə bu mövzulu sənədlərdən və bu sahə üzrə informasiya tələbatçılarından ibarət deyildir. Müasir cəmiyyətdə ilkin sənədlərin və biblioqrafik informasiyanın tələbatçılara çatdırılmasına xidmət edən bir sıra ictimai təsisatlar, kommunikasiya vasitələri və kanalları da vardır ki, bunlar da sənəd-kommunikasiyalar sisteminin tərkib hissələridir [1, S.76]. Həm də belə bir faktı qeyd etmək lazımdır ki, XX əsrin son rübündən etibarən həm memarlıq, həm də bir sıra digər sahələr üzrə biblioqrafik informasiya təminatında elektron sənəd-informasiya xidməti göstərən şirkətlərin, nəşriyyatların, redaksiyaların xüsusi çəkisi davamlı olaraq artmaqdadır. Bu proses daha çox tələbatçının fərdi kompüterlədən, şəbəkə texnologiyalarından istifadə etməsi ilə əlaqədardır.

Uzun müddət ərzində memarlığın kitabxana-biblioqrafik informasiya təminatına aid məsələlər digər biblioqrafik fənlərin tərkibində öyrənilirdi. Lakin XX əsrin son rübündə memarlıq biblioqrafiyasının biblioqrafik elmlər sisteminin müstəqil bir sahəsi kimi fərqləndirilməsi zərurəti meydana çıxdı və həmin istiqamət formalaşdı.

Memarlıq biblioqrafiyası xidmət etdiyi elm və praktiki fəaliyyət sahəsi ilə sıx bağlıdır. Bu sahədə mövcud olan sənədlər bir sıra əlamətlərinə görə fərqləndirilə bilər. Memarlıq üzrə elmi tədqiqatların məzmunu və inkişaf istiqamətləri bu sahə üzrə sənədlərin məzmununa da təsir edir. Bu inkişaf ilk növbədə memarlıq elminin özünün inkişaf dinamikası ilə bağlıdır. Memarlığın inkişaf dinamikası daim dəyişir və inkişaf edir [3, S.4]. Bəzən bir müddət ərzində ayrıca bir sahədə sürətli yenişləşmə və inkişaf nəzərə çarpır. Bu zaman təbii ki, həmin sahə üzrə sənəd axını da güclənir.

Diferensiasiya və inteqrasiya prosesləri memarlıq elmi sahəsində də müşahidə edilir. Diferensiasiya prosesi zamanı, memarlıq elminin konkret bir sahəsinin şaxələnərək yeni istiqamətlər yaranır. İnteqrasiya zamanı isə memarlıq elminin digər müstəqil elm sahəsi ilə qovuşmasından meydana gələn yeni istiqamətlərin formalaşması prosesi baş verir. Buna misal olaraq memarlıq və tarix elmlərinin inteqrasiyasından əmələ gəlmiş "memarlıq tarixi"ni misal göstərmək olar.

Göstərilən diferensiasiya və inteqrasiya prosesləri öz əksini bu sahədə yaranan sənəd axınında göstərir. Buna görə də həmin elm üzrə biblioqrafik fəaliyyət təşkil edilərkən göstərilən proseslər nəzərə alınmalıdır. Memarlıq biblioqrafiyası obyektinin öyrənilməsi üçün nəzərdə tutulan məsələlərdən biri də bu sahə üzrə sənədlərin spesifik məzmun və tərtibat xüsusiyyətləridir.



Memarlıq elminə aid olan bir sıra sahələr özlərinə məxsus xüsusiyyətlərə malikdir. Həmin xüsusiyyətlərə bu sahə üzrə formalaşmış olan riyazi işarələr və simvolları aid etmək mümkündür. Memarlıq üzrə sənədlərə məxsus olan bu əlamətlər həmin sahənin biblioqrafiyasının təşkili üçün nəzərə alınmalıdır. Memarlığın digər xarakterik cəhəti ondan ibarətdir ki, bu sahə üzrə sənəd axınının tərkibində soraq ədəbiyyatı, lüğət və ensiklopediyaların xüsusi çəkisi xeyli yüksəkdir. Məsələn, abidələrin bərpası və rekonstruksiya sahəsində alimlər soraq kitablarından, bu sahə üzrə avadanlığın texniki pasportlarından, müxtəlif cədvəllərdən və sxemlərdən geniş istifadə edirlər.

Son zamanlar memarlıq üzrə sənəd axınında müşahidə edilən digər bir cəhət bu sahə üzrə sənəd axınının tərkibində qeyri-ənənəvi - elektron sənədlərin meydana gəlməsi və xüsusi çəkisinin artmasıdır. Hal-hazırda bu sahə üzrə xüsusilə, soraq ədəbiyyatı elektron formatına keçirilərək CD-yə yazılmış mətnlər və multimedia vasitələri şəklində nəşr edilir.

Memarlıq biblioqrafiyasının digər obyekti olan tələbatçıların tərkibi də digər elm sahələrindən xeyli fərqlənir. Burada fərqli cəhət təkcə burada çalışan mütəxəssislərin peşə aidiyyəti deyil, həm də müəyyən elm sahələri üzrə çalışan tələbatçılar qrupunun tərkibindəki xüsusiyyətlərdir.

Memarlıq üzrə tələbatçı qrupları içərisində müxtəlif təhsil müəssisələrində oxuyan tələbələr xüsusi mövqeyə malikdir. Sahə üzrə təhsil alan tələbələrin sənəd-informasiya təminatı biblioqrafik fəaliyyətin çox əhəmiyyətli istiqamətlərindən biridir. Cəmiyyətdə baş verən inkişaf prosesləri bu və ya digər sahənin inkişafına da öz təsirini göstərir. Bu da öz əksini tələbatçıların sayının artması və ya azalması ilə büruzə verir. Turizmin inkişafı, elmi-texniki tərəqqi insanların memarlığın ayrı-ayrı sahələrinə diqqətin artması və sənəd axınının intensivləşməsi ilə xarakterizə olunur. Bütün bu xüsusiyyətlər özünü həmin tələbatın ödənilməsinə yönəlmiş biblioqrafik informasiya təminatında tapır.

**Nəticə.**

Müasir dövrdə memarlıq üzrə informasiya resurslarının formalaşması məsələləri gündən-günə daha yüksək aktuallıq kəsb etməkdədir. Bunun da məntiqi nəticəsi kimi, memarlıq biblioqrafiyasının biblioqrafiyaşünaslığın müstəqil bir sahəsi kimi formalaşması prosesi davam etməkdədir.

**Ədəbiyyat**


1. Əliyev Z.H. Ümumi biblioqrafiyaşünaslıq. – Bakı, 2001. – 143 s.
2. Hüseynov E, Həsənov Ə, Mikayılova M. Tarixi şəhərin memarlıq irsi. – Bakı, 2006. – 152 s.
3. Bəkirova T.Ş. Memarlıq mühitinin inkişaf təkamülü. – Bakı, 2013.


*Məqalə BDU-nun Kitabxana resursları və informasiya axtarış sistemləri kafedrasının aprel 2015-ci ili 16 tarixli 7 saylı iclasında müzakirə edilmiş və çapa məsləhət görülmüşdür.*

*Rəyçilər: prof. X.İ.İsmayılov, dosent A.M.Əliyev*